# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 185** **Bakı şəhəri, 26 iyun 2021-ci il**

**"Respublika üzrə illik su təsərrüfatı balansının təsdiq edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 may tarixli 208 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

"Elektron su təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 fevral tarixli 1289 nömrəli Fərmanının 5.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 may tarixli 208 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 943) ilə təsdiq edilmiş "Respublika üzrə illik su təsərrüfatı balansının təsdiq edilməsi Qaydası"na aşağıdakı məzmunda 1.3-cü bənd əlavə edilsin:

"1.3. Respublika üzrə illik su təsərrüfatı balansına dair, ölkənin əsas su və su təsərrüfatı obyektlərində su ehtiyatları barədə gündəlik məlumatlar, o cümlədən su anbarlarının səviyyəsi, həcmi, su anbarına daxil olan və çıxan su həcmləri (strukturu göstərilməklə), hidroqovşaqların qəbul etdiyi və ötürdüyü su həcmləri (strukturu göstərilməklə), çaylar üzrə, məntəqələr və yerləşdiyi ərazilər göstərilməklə, su sərfi, subartezian və artezian quyularının istismarı barədə, su ehtiyatlarının qiymətləndirilməsi, inventarlaşdırılması və modelləşdirilməsi ilə bağlı digər məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 fevral tarixli 1289 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron su təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "Elektron su təsərrüfatı" informasiya sisteminə daxil edilir.".

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2021.- 2 iyul.- S.6.